Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin
31.07.2026-cı il tarxili 3-24/3-1-f-164/2026 nömrəli
əmri ilə **təsdiq edilmişdir** (3 nömrəli əlavə).

# AZƏRBAYCAN RESPUBLİKASI MƏDƏNİYYƏT NAZİRLİYİNİN TABELİYİNDƏKİ İNCƏSƏNƏT MƏKTƏB VƏ MƏRKƏZLƏRİNƏ DİREKTOR VƏ DİREKTOR MÜAVİNLƏRİNİN İŞƏ QƏBULU ÜZRƏ MÜSABİQƏNİN MÜSAHİBƏ MƏRHƏLƏSİNİN PROQRAMI

## 1. Ümumi müddəalar

1.1. Müsahibə namizədin vakant direktor və ya direktor müavini vəzifəsinə uyğunluğunun bilik, bacarıq, peşə hazırlığı və şəxsi keyfiyyətlər əsasında müəyyən edilməsi məqsədilə keçirilir.

1.2. Müsahibə fərdi qaydada, Azərbaycan Respublikasının dövlət dilində və azı 20 dəqiqə aparılır.

1.3. Müsahibə şifahi suallar, situasiya əsaslı tapşırıqlar və namizədin cavablarının dinlənilməsi yolu ilə həyata keçirilir. Namizəddən əvvəlcədən proqram, fəaliyyət planı, təqdimat və ya digər analoji sənəd hazırlaması və təqdim etməsi tələb olunmur.

1.4. Namizədə yalnız bu Proqramda göstərilən mövzular və ədəbiyyat üzrə suallar və situasiya əsaslı tapşırıqlar verilir.

## 2. Qiymətləndirmə meyarları

2.1. Komissiyanın hər bir üzvü namizədin vakant vəzifəyə uyğunluğunu aşağıdakı dörd meyar üzrə qiymətləndirir:

2.1.1. bilik səviyyəsi – vakant vəzifə üzrə müsahibə proqramında nəzərdə tutulan normativ hüquqi aktlara və digər sənədlərə dair biliklər;

2.1.2. peşə hazırlığı – nəzəri və qanunvericilik biliklərini, habelə informasiya texnologiyaları üzrə bilikləri praktik vəziyyətlərə tətbiqetmə bacarığı;

2.1.3. ümumi dünyagörüşü – ölkədə, dünyada və cəmiyyətdə, xüsusilə mədəniyyət və təhsil sahələrində baş verən mühüm hadisələrə dair məlumatlılıq və mülahizə yürütmək bacarığı;

2.1.4. vakant vəzifə üçün zəruri keyfiyyətlər – emosional sabitlik, məsuliyyətlilik, məqsədyönlülük, dürüstlük, özünütənqid, nüfuzetmə, təhliletmə və ünsiyyətqurma bacarıqları.

2.2. Hər bir meyar Komissiyanın hər bir üzvü tərəfindən 2-dən 5-dək balla qiymətləndirilir. Namizədin yekun müsahibə balı Qaydalarda müəyyən edilmiş qaydada hesablanır.

2.3. Müsahibə üzrə 16 və daha çox bal toplayan namizəd müsahibədən müvəffəqiyyətlə keçmiş hesab olunur.

## 3. Direktor vəzifəsi üzrə yoxlanılan peşə hazırlığı istiqamətləri

3.1. incəsənət məktəb və mərkəzinin fəaliyyətinin qanunvericiliyə və təsdiq edilmiş sənədlərə uyğun təşkili;

3.2. məktəbin strateji və cari fəaliyyətinin planlaşdırılması, prioritetlərin müəyyən edilməsi və nəticələrin izlənilməsi;

3.3. tədrisin keyfiyyətinin, şagird nailiyyətlərinin və müəllim fəaliyyətinin idarə olunması;

3.4. əmək münasibətlərinin, əmək və icra intizamının, iş bölgüsünün və kadr proseslərinin təşkili;

3.5. maliyyə, əmlak, inventar, təhlükəsizlik və təsərrüfat məsələləri üzrə rəhbərin vəzifə və məsuliyyəti;

3.6. vətəndaş müraciətlərinə, valideynlərlə münasibətlərə, etik davranışa və maraqlar toqquşması hallarına yanaşma;

3.7. problemli və böhran xarakterli situasiyalarda qərarvermə, məsuliyyətin bölüşdürülməsi və nəticəyə nəzarət;

3.8. rəqəmsal idarəetmə vasitələrindən istifadə, məlumatların düzgünlüyünün və hesabatlılığın təmin edilməsi.

## 4. Direktor müavini vəzifəsi üzrə yoxlanılan peşə hazırlığı istiqamətləri

4.1. tədris planlarının, dərs cədvəllərinin və müəllimlərin dərs yükünün normativ tələblərə uyğun hazırlanması və icrasına nəzarət;

4.2. tədris prosesinin gündəlik təşkili, dərslərin əvəz edilməsi, davamiyyət və tədris intizamının izlənilməsi;

4.3. şagirdlərin biliyinin qiymətləndirilməsi, imtahanların təşkili və nəticələrin sənədləşdirilməsi;

4.4. metodiki işin, müəllimlərin peşəkar inkişafının, qarşılıqlı dərsdinləmələrin və təcrübə mübadiləsinin təşkili;

4.5. tədris sənədlərinin, jurnalların, şəxsi işlərin, hesabatların və elektron məlumatların düzgün aparılmasına nəzarət;

4.6. şagird, müəllim və valideynlərlə ünsiyyət, münaqişələrin ilkin həlli və məsələlərin səlahiyyət daxilində rəhbərə təqdim edilməsi;

4.7. tədrisin keyfiyyətinə təsir edən problemlərin müəyyən edilməsi, təhlili və aradan qaldırılması üzrə təkliflərin hazırlanması;

4.8. direktorun tapşırıqlarının icrası, verilmiş səlahiyyətlər daxilində qərarvermə və görülmüş işlər üzrə hesabatlılıq.

## 5. Bilik səviyyəsi üzrə mövzular

5.1. Namizədin aşağıdakı mövzular üzrə bilikləri və həmin bilikləri praktik vəziyyətlərə tətbiqetmə bacarığı yoxlanılır:

5.1.1. Azərbaycan Respublikasının dövlət quruluşu, dövlət rəmzləri və dövlət dili;

5.1.2. əmək münasibətlərinin yaranması, dəyişdirilməsi və xitamı, iş vaxtı, məzuniyyət, əmək və icra intizamı, əməyin mühafizəsi;

5.1.3. mədəniyyət və təhsil sahəsində dövlət siyasətinin əsasları, təhsil prosesinin iştirakçılarının hüquq və vəzifələri;

5.1.4. incəsənət məktəb və mərkəzlərinin idarə olunması, tədris işinin təşkili, tədris planları və pedaqoji işçilərin dərs yükü;

5.1.5. korrupsiyaya qarşı mübarizə, etik davranış, vətəndaş müraciətləri, uşaq hüquqları və fərdi məlumatlarla iş;

5.1.6. sanitariya-epidemioloji və yanğın təhlükəsizliyi tələbləri, kargüzarlıq və hesabatlılıq;

5.1.7. vəzifəyə dair Vahid Tarif-İxtisas Sorğu Kitabçasının tələbləri və digər aidiyyəti normativ sənədlər.

## 6. Ümumi dünyagörüşü və vəzifə üçün zəruri keyfiyyətlər

6.1. Ümumi dünyagörüşü üzrə namizədin Azərbaycan mədəniyyəti və incəsənəti, mədəniyyət və təhsil sahəsində aktual proseslər, ölkədə və dünyada baş verən mühüm hadisələr barədə məlumatlılığı və əsaslandırılmış mövqe ifadə etmək bacarığı yoxlanılır.

6.2. Vəzifə üçün zəruri keyfiyyətlər əsasən situasiya əsaslı suallar vasitəsilə qiymətləndirilir. Namizədin problemi müəyyən etməsi, məlumatı təhlil etməsi, alternativləri müqayisə etməsi, hüquqa və etik davranışa uyğun qərar verməsi, fikrini aydın ifadə etməsi və nəticəyə görə məsuliyyət daşımağa hazır olması nəzərə alınır.

## 7. Normativ hüquqi aktlar və digər sənədlər

Aşağıdakı normativ hüquqi aktlar, digər sənədlər və mənbələr üzrə ədəbiyyat siyahısı dəyişdirilmədən saxlanılmışdır.

| NORMATİV HÜQUQI AKTLAR | |
|---|---|
| **MÖVZULAR** | |
| | **Azərbaycan Respublikasının Konstitusiyası** |
| | **“Azərbaycan Respublikasının Dövlət Gerbindən istifadə qaydaları haqqında” Azərbaycan Respublikasının Qanunu** |
| | **“Azərbaycan Respublikası Dövlət bayrağının istifadəsi qaydaları haqqında” Azərbaycan Respublikasının Qanunu** |
| | **“Azərbaycan Respublikasının Dövlət Himnindən istifadə qaydaları haqqında” Azərbaycan Respublikasının Qanunu** |
| | **“Azərbaycan Respublikasında dövlət dili haqqında” Azərbaycan Respublikasının Qanunu** |
| | **Azərbaycan Respublikasının Əmək Məcəlləsi**<br><br>Əmək müqaviləsinin tərəflərinin əsas hüquqları, vəzifələri və əmək münasibətlərinin tənzimlənməsi sahəsində ümumi hüquqi təminatları **(Maddələr 9 - 12, 16)**;<br>Əmək müqaviləsinin bağlanması əsasları və qaydası **(Maddələr 42 - 53)**;<br>Əmək şəraiti, əmək funksiyası və bunların tətbiqini tənzimləyən hüquq normaları **(Maddələr 54 - 62)**;<br>İşçilərin və iş yerlərinin attestasiyasının keçirilməsini tənzimləyən hüquq normaları |

| | |
|---|---|
| | **(Maddələr 64 - 67)**;<br>Əmək müqaviləsinə xitam verilməsinin əsasları və qaydaları **(Maddələr 68 - 76)**;<br>Əmək müqavilələrinə xitam verilərkən işçilərin təminatları **(Maddələr 77- 80)**;<br>Əmək müqavilələrinin bağlanması, şərtlərinin dəyişdirilməsi və xitamının sənədləşdirilməsi qaydaları **(Maddələr 81- 88)**;<br>İş vaxtının növləri və tənzimlənməsi qaydaları **(Maddələr 89 - 91, 93, 94)**;<br>Əmək məzuniyyətlərinin müddətləri **(Maddələr 114 - 120)**;<br>Yaradıcılıq və təhsil məzuniyyətləri **(Maddələr 122 - 124)**;<br>Sosial məzuniyyətlər **(Maddələr 125 - 127)**;<br>Ödənişsiz məzuniyyətlər **(Maddələr 128 - 130)**;<br>Əmək və icra intizamının təmin edilməsi qaydaları **(Maddələr 182 - 185)**;<br>Əmək və icra intizamının pozulmasına görə intizam məsuliyyəti və onun tətbiqi qaydaları **(Maddələr 186 - 190)**;<br>Əməyin mühafizəsi normaları, qaydaları və prinsipləri **(Maddələr 208, 209)**;<br>Əməyin mühafizəsinin hüquqi, təşkilati-texniki və maliyyə təminatı **(Maddələr 215 - 219, 222)**. |
| | **“Mədəniyyət haqqında” Azərbaycan Respublikasının Qanunu**<br><br>Əsas anlayışlar **(Maddə 1)**;<br>Mədəniyyət sahəsində təhsil hüququ **(Maddə 15)**;<br>Mədəniyyət sahəsində fəaliyyət istiqamətləri **(Maddə 20)**;<br>Mədəniyyət sahəsində dövlət monitorinqi **(Maddə 27)**;<br>Mədəniyyət sahəsində qadağalar **(Maddə 43).** |
| | **“Təhsil haqqında” Azərbaycan Respublikasının Qanunu**<br><br>Təhsilin əsas məqsədi **(maddə 4)**;<br>Təhsil sisteminin quruluşu **(maddə 8)**;<br>Təhsilin məzmununa və təşkilinə dair ümumi tələblər **(maddə 11)**;<br>Təhsilin formaları **(maddə 12)**;<br>Təhsilalma formaları **(maddə 13)**;<br>Təhsil müəssisəsi **(maddə 14)**;<br>Təhsilin pillələri və səviyyələri **(maddə 17)**;<br>Təhsil haqqında dövlət sənədi **(maddə 27)**;<br>Təhsil müəssisəsinin idarə olunması **(maddə 30)**;<br>Təhsil prosesinin iştirakçıları **(maddə 31)**;<br>Təhsilalanların hüquq və vəzifələri **(maddə 32)**;<br>Təhsilverənlərin hüquq və vəzifələri **(maddə 33)**;<br>Pedaqoji fəaliyyətlə məşğul olma **(maddə 36-1)**;<br>Dövlət məktəbəqədər və ümumi təhsil müəssisələrində (ümumi təhsil üzrə təhsilverənlərə münasibətdə digər dövlət təhsil müəssisələrində), habelə dövlət uşaq musiqi, incəsənət, rəssamlıq məktəblərində və bu qəbildən olan digər dövlət təhsil müəssisələrində təhsilverənlərin sertifikatlaşdırılması **(maddə 36-2);**<br>Təhsil müəssisəsinin sahibkarlıq və innovasiya fəaliyyəti **(maddə 41)**;<br>Keyfiyyətsiz təhsilə görə vurulan zərərin ödənilməsi **(maddə 42)**. |

| | |
|---|---|
| | **“Korrupsiyaya qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının Qanunu** |
| | **“Vətəndaşların müraciətləri haqqında” Azərbaycan Respublikasının Qanunu** |
| | **“Uşaq hüquqları haqqında” Azərbaycan Respublikasının Qanunu**<br><br>Uşağın təhsil almaq hüququ **(maddə 22)**;<br>Fitri istedada malik uşaqlara dövlət qayğısı **(maddə 23)**;<br>Uşağın şərəf və ləyaqətinin müdafiəsi hüququ **(maddə 27)**. |
| | **“Sanitariya-epidemioloji salamatlıq haqqında” Azərbaycan Respublikasının Qanunu**<br><br>Ümumi müddəalar **(maddə 1-3)**;<br>Sanitariya-epidemioloji salamatçılığın təmin edilməsi sahəsində dövlət orqanlarının, ictimai birliklərin, müəssisələrin, təşkilatların, idarələrin, vəzifəli şəxslərin və vətəndaşların vəzifələri **(maddə 11)**;<br>Azərbaycan Respublikasının sanitariya qanunvericiliyini pozmağa görə məsuliyyət **(maddə 38-39)**. |
| | **Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 14 yanvar tarixli 888 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Mədəniyyəti – 2040” Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyası** |
| | **Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 27 sentyabr tarixli 935 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat”** |
| | **“Təhsil müəssisəsinin əlavə gəlir əldə etmək məqsədi ilə məşğul olmasına yol verilən sahibkarlıq fəaliyyəti növlərinin müəyyən edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 19 yanvar tarixli 10 nömrəli Qərarı** |
| | **“Təhsil müəssisələrinin pedaqoji işçilərinin dərs yükü normalarının müəyyən edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 24 noyabr tarixli 215 nömrəli Qərarı** |
| | **“Pedaqoji fəaliyyətlə məşğul olmağa yol verməyən xəstəliklərin Siyahısı”nın təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 18 fevral tarixli 57 nömrəli Qərarı** |
| | **“Dövlət orqanlarının strukturuna daxil olmayan tabeliyindəki qurumlar tərəfindən işlərin görülməsindən və xidmətlərin göstərilməsindən əldə edilən vəsaitdən (o cümlədən tutulan xidmət haqlarından) istifadə Qaydası”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 10 sentyabr tarixli 257 nömrəli Qərarı** |
| | **Mədəni-maarif müəssisələrində olan qulluqçu vəzifələrinin Vahid Tarif-İxtisas Sorğu Kitabçası**<br><br>Uşaq musiqi, incəsənət, rəssamlıq məktəblərinin direktor və müəllimləri ilə bağlı bəndlər |
| | **Təhsilverənlərin etik davranış Qaydaları** |
| | **Azərbaycan Respublikasında yanğın təhlükəsizliyi Qaydaları** |

| | |
|---|---|
| | **İncəsənət məktəb və mərkəzlərinin Nümunəvi Əsasnaməsi** |
| | **İncəsənət məktəb və mərkəzlərində tədris işinin təşkili haqqında Təlimat** |
| | **İncəsənət məktəb və mərkəzlərinin tədris planları** (11 illik, 7 illik, 5 illik, 4 illik təhsil sistemləri üçün) |
| **MƏNBƏ SƏNƏDLƏRİ** | |
| 1 | Azərbaycan Respublikasının Konstitusiyası<br>https://www.e-qanun.az/framework/897 |
| 2 | "Azərbaycan Respublikasının Dövlət Gerbindən istifadə qaydaları haqqında" Azərbaycan Respublikasının Qanunu<br>https://e-qanun.az/framework/41948 |
| 3 | "Azərbaycan Respublikası Dövlət bayrağının istifadəsi qaydaları haqqında" Azərbaycan Respublikasının Qanunu<br>https://e-qanun.az/framework/6198 |
| 4 | "Azərbaycan Respublikasının Dövlət Himnindən istifadə qaydaları haqqında" Azərbaycan Respublikasının Qanunu<br>https://e-qanun.az/framework/41961 |
| 5 | "Azərbaycan Respublikasında dövlət dili haqqında" Azərbaycan Respublikasının Qanunu<br>https://e-qanun.az/framework/1865 |
| 6 | Azərbaycan Respublikasının Əmək Məcəlləsi<br>https://www.e-qanun.az/framework/46943 |
| 7 | "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının Qanunu<br>http://www.e-qanun.az/framework/25303 |
| 8 | "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu<br>http://www.e-qanun.az/framework/18343 |
| 9 | "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanunu<br>https://www.e-qanun.az/framework/5809 |
| 1 | "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanunu<br>https://e-qanun.az/framework/31281 |
| 1 | "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikasının Qanunu<br>https://e-qanun.az/framework/3292 |
| 1 | "Sanitariya-epidemioloji salamatlıq haqqında" Azərbaycan Respublikasının Qanunu<br>https://e-qanun.az/framework/7916 |
| 1 | "Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat"ın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 27 sentyabr tarixli 935 nömrəli Fərmanı<br>https://e-qanun.az/framework/2284 |
| 1 | Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 14 yanvar tarixli 888 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Mədəniyyəti – 2040" Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyası<br>https://e-qanun.az/framework/61191 |

| | |
|---|---|
| 1 | “Təhsil müəssisəsinin əlavə gəlir əldə etmək məqsədi ilə məşğul olmasına yol verilən sahibkarlıq fəaliyyəti növlərinin müəyyən edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 19 yanvar tarixli 10 nömrəli Qərarı<br>https://e-qanun.az/framework/19148 |
| 1 | “Təhsil müəssisələrinin pedaqoji işçilərinin dərs yükü normalarının müəyyən edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 24 noyabr tarixli 215 nömrəli Qərarı<br>https://e-qanun.az/framework/21004 |
| 1 | “Pedaqoji fəaliyyətlə məşğul olmağa yol verməyən xəstəliklərin Siyahısı”nın təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 18 fevral tarixli 57 nömrəli Qərarı<br>https://e-qanun.az/framework/41513 |
| 1 | “Dövlət orqanlarının strukturuna daxil olmayan tabeliyindəki qurumlar tərəfindən işlərin görülməsindən və xidmətlərin göstərilməsindən əldə edilən vəsaitdən (o cümlədən tutulan xidmət haqlarından) istifadə Qaydası”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 10 sentyabr tarixli 257 nömrəli Qərarı<br>https://e-qanun.az/framework/48215 |
| 1 | Mədəni-maarif müəssisələrində olan qulluqçu vəzifələrinin Vahid Tarif-İxtisas Sorğu Kitabçası<br>https://e-qanun.az/framework/22893 |
| 2 | Təhsilverənlərin etik davranış Qaydaları<br>https://e-qanun.az/framework/56915 |
| 2 | Azərbaycan Respublikasında yanğın təhlükəsizliyi Qaydaları<br>https://e-qanun.az/framework/10933 |
| 2 | İncəsənət məktəb və mərkəzlərinin Nümunəvi Əsasnaməsi<br>https://admin.culture.gov.az/storage/uploads/legislations/az/OGopZAEzR2OJjfsqu39w1761303275.pdf |
| 2 | İncəsənət məktəb və mərkəzlərində tədris işinin təşkili haqqında Təlimat<br>https://admin.culture.gov.az/storage/uploads/legislations/az/9n2y3Vi6lFkmXrzQwGWf1761303224.pdf |
| 2 | İncəsənət məktəb və mərkəzlərinin tədris planları (7 illik, 5 illik və 4 illik təhsil sistemi üçün)<br>https://admin.culture.gov.az/storage/uploads/legislations/az/3VjZX4wkRGVw7Yz7JN2Y1761303201.pdf |
| 2 | İncəsənət məktəb və mərkəzlərinin tədris planları (11 illik təhsil sistemi üçün)<br>https://admin.culture.gov.az/storage/uploads/legislations/az/cWo9YEyuDrctTM8Mgkvu1761303169.pdf |